# QULİYEV MƏTLƏB KAMRAN OĞLU



Quliyev Mətləb Kamran oğlu 9 yanvar 1959-cu ildə Beyləqan rayonunda doğulmuşdur. İbtidai təhsilini 3 saylı pambıqçılıq sovxozundakı orta məktəbdə almışdır. Sonra ailəsi Sumqayıt şəhərinə köçmüşdür. O, təhsilini səkkizinci sinfə qədər buradakı 13 saylı orta məktəbdə davam etdirmişdir. Daha sonra sənədlərini C.Naxçıvanski adına hərbi məktəbə verir. O hərbi məktəbi müvəffəqiyyətlə bitirir, əvvəlcə Giləzi Quşçuluq fabrikində, sonra isə Ceyranbatan Avtomobil Nəqliyyatı Trestində çilingər işləyir. Az keçmir ki, ordu sıralarına çağırılır. Hərbi xidməti Ukrayna Respublikasında keçir. Ordudan tərxis olunan il Azərbaycan Dövlət Pedaqoji İnstitutuna daxil olur. İnstitutda "Təhsil əlaçısı" döş nişanı ilə təltif edilir. 1985-ci ildə leytenant rütbəsi ilə ali məktəbi bitirib Sumqayıt şəhəri 3 saylı orta məktəbdə hərbi hazırlıq müəllimi kimi çalışmağa başlayır. 1992-ci ildə daxili işlər orqanında işə düzəlir. 1992-ci ilin avqustun 31-də Ağdam bölgəsində ağır döyüşlər gedirdi. Mətləb bu döyüşdə pulemyotla onlarla erməni yaraqlısı məhv edir. Erməni quldurları onun pulemyotunun darağında güllənin qurtardığını hiss edərək hər tərəfdən hücuma keçirlər. O, bu döyüşdə qəhrəmancasına həlak olur. Bakı şəhərinin Şəhidlər xiyabanında dəfn edilmişdir. Ailəli idi. Bir oğlu, bir qızı yadigar qalıb. Azərbaycan Respublikası prezidentinin 6 noyabr 1992-cı il tarixli 290 saylı fərmanı ilə baş leytenant Quliyev Mətləb Kamran oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir. Sumqayıt şəhər 3 saylı orta məktəb onun adını daşıyır. Məktəbin önündə büstü qoyulmuşdur. Yaşadığı binanın önünə xatirə lövhəsi vurulmuş, adına bulaq tikilmişdir.